# ROKOL® BİNDER ASTAR 200

***Yüksək qatılığa malik, su əlavə edilir***




**Məhsul haqqında**
Akrilik əsaslı, məhsulun istifadə imkanlarını artıran qatqılarla zəngin, istifadəyə hazır qatı mayedir.

**İstifadə sahələri**
Bu astardan:
- gips, beton, suvaq, döşəmə suvağı, ağac kimi səthlərin suhopma qabiliyyətini azaltmaqla sement əsaslı materialların yapışma qabiliyyətinin artırılmasında;
- köhnə səthlərin üzərində görüləcək üzlük tamamlama işlərindən əvvəl;
- daha yaxşı nəticə əldə etmək üçün keramika, üzlük plitə, səviyyə alma qarışığı (Şap), izolyasiya, boya kimi materialları istifadə etməmişdən əvvəl istifadə olunur.

**Üstünlükləri**
- istifadəyə hazırdır;
- istifadə olunacaq səthlərin qopub tökülməsinə və sonradan çatlar əmələ gəlməsinə yol vermir;
- məhsuldarlığı artırır;
- materialların sərfinə qənaət edir.

**İstifadə qaydaları**
***Səthin hazırlanması.*** İstifadə olunacaq səthlərin sağlam, quru, təmiz və ölçülərinin düzgün olmasına diqqət edilməlidir. Səth yapışma müqavimətini zəiflədən hər növ yağ və parafin qalıqlarından tamamilə təmizlənməlidir.

***Tətbiqi.*** ROKOL BİNDER ASTAR 200 məhsulunu istifadədən əvvəl çalxalayın və səthə vərdənə və ya fırça ilə çəkin. Məhsulun quruma müddəti 45-60 dəqiqədir, qurumayana qədər üzərində heç bir iş görməyin. Gips kimi udma qabiliyyəti yüksək olan məhsulların üzərinə 2 qat çəkin.

***Tövsiyələr.*** ROKOL BİNDER ASTAR 200 məhsulunun istifadə olunduğu səthin temperaturu $+5^{0}$C-dən aşağı və $+30^{0}$C-dən yuxarıdırsa, lazımi temperatur təmin olunmalıdır. İsti ($+30^{0}$C-dən yuxarı), yağışlı və küləkli havalarda istifadə olunmamalıdır. İstifadədən sonra bütün alət və ləvazimatlar su ilə təmizlənməlidir.

**Texniki göstəricilər**

| | |
|---|---|
| Rəngi | ağ rəngli maye |
| İstifadə temperaturu | $+5^{0}$ C – $+30^{0}$ C |
| Quruma müddəti ($+23^{0}$C temperaturda) | 2 saat |
| Həcm kütləsi | 0,97 kq/ litr |
| Qablaşdırma | 1; 4 və 10 litrlik plastik bidonlarda |

**Sərfiyyat**
ROKOL BİNDER ASTAR 200 məhsulunun sərfiyyatı 1 $m^2$ səthə 120 qramdır:
- daxili məkanlarda 1 litrə 7 litr su;
- xarici məkanlarda isə 1 litrə 1 litr su əlavə etməklə istifadə edilir.

**Saxlama müddəti və qaydası**
Açılmamış qablarda quru şəraitdə 12 ay saxlanıla bilər.

**Xəbərdarlıqlar**
- astarın mürəkkəb tərkibli qarışıq olduğunu nəzərə alaraq, dəriyə və ya gözə düşərsə, dərhal su ilə yuyun;
- istifadə qaydalarında qeyd edilməyən heç bir əlavə maddə qatmayın;
- yuxarıdakı göstəricilər $+23^{0}C\pm2^{0}C$ temperatur və 50%±5% rütubətli şəraitdə aparılan laboratoriya sınaqları nəticəsində əldə olunmuşdur. Şəraitdən asılı olaraq bu göstəricilər dəyişə bilər.

**Zəmanət və texniki dəstək**
- texniki göstəricilərdə qeyd edilmiş məlumatlar elmi və təcrübi biliklərə əsaslanır;
- "Mətanət A" şirkəti məhsulun müvafiq texniki şərt və dövlət standartlarına uyğunluğuna zəmanət verir;
- şirkətin mütəxəssislərinin rəhbərliyi altında görülən işlər istisna olmaqla, digər istifadəçilər tərəfindən təlimatdan kənar istifadə zamanı yarana biləcək problemlərə görə "Mətanət A" şirkəti məsuliyyət daşımır;
- şirkət elmi-texniki inkişafla bağlı məhsulda dəyişiklik etmə hüququnu özündə saxlayır;
- texniki dəstək və ya daha geniş məlumat almaq üçün "Mətanət A" şirkətinə müraciət edin!